| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 17.09.1998 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 895 |
| **ADI** | “Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə” Dövlət Proqramının təsdiq edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-09-1998, Nəşr nömrəsi: 09, Maddə nömrəsi: 582) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 17.09.1998 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 100.000.000<br>010.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

**“Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə” Dövlət Proqramının təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Qaçqınların və məcburi köçkünlərin mövcud olan vəziyyətini nəzərə alaraq onların təhsil, səhiyyə, işə cəlbolma, mənzil-məişət, müavinət və digər problemlərinin həllini yaxşılaşdırmaq, sosial müdafiəsini ardıcıl olaraq təmin etmək və bu sahənin idarə olunmasını təkmilləşdirmək məqsədi ilə **qərara alıram:**

1. “Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə” Dövlət Proqramı təsdiq olunsun (əlavə edilir).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

bu Sərəncamın 1-ci bəndində göstərilən Dövlət Proqramının icra edilməsini təmin etmək üçün digər müvafiq icra hakimiyyəti orqanları ilə zəruri olan tədbirləri görsün;

bu Sərəncamın 1-ci bəndində göstərilən Dövlət Proqramının icra edilməsi ilə əlaqədar hər aydan bir Azərbaycan Respublikası Prezidentinə məlumat versin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 17 sentyabr 1998-ci il
895

Azərbaycan Respublikası Prezidentinin
1998-ci il 17 sentyabr tarixli 895 nömrəli Sərəncamı ilə
təsdiq edilmişdir

**Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə**

**DÖVLƏT PROQRAMI**[1]

| Tədbirlərin adı | İcra müddəti | İcra orqanları |
|---|---|---|
| 1 | 2 | 3 |
| **I. Qaçqınların və məcburi köçkünlərin hüquqlarının tənzimlənməsi** | | |
| 1. «Qaçqınların və məcburi köçkünlərin statusu haqqında» Azərbaycan Respublikası Qanununun (29 sentyabr 1992-ci il), qaçqınların statusuna aid 1951-ci il Konvensiyasının, 1967-ci il Protokolunun və digər beynəlxalq hüquqi normativ aktların tələblərinə uyğun şəkildə yenidən işlənib hazırlanması və Milli Məclisə təqdim edilməsi. | 1998-ci il | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Ədliyyə Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |
| 2. Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli ilə əlaqədar fərman, sərəncam və digər normativ aktların hazırlanması və qəbul edilməsi. | müntəzəm | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı, Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi |
| 3. Qaçqınların və məcburi köçkünlərin hüquqlarının müdafiəsi, onların iqtisadi və sosial problemlərinin daha səmərəli həll edilməsi ilə əlaqədar təkliflərin hazırlanıb müzakirəyə verilməsi. | 1998-ci il noyabr—dekabr | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı, Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |

| | | |
|---|---|---|
| 4. Ölkədə, beynəlxalq aləmdə baş verən dəyişikliklərlə bağlı «qaçqın» və «məcburi köçkün» statusu almış şəxslərin hüquqi vəziyyəti, həmin statusun şamil edilməsi müddətinin konkret müəyyənləşdirilməsi, statuslara xitam verilməsi, qaçqınların və məcburi köçkünlərin hüquqlarını, azadlıqlarını və vəzifələrini tənzimləyən hüquqi normativ aktların təkmilləşdirilməsi. | müntəzəm | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı, Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Ədliyyə Nazirliyi |
| 5 . Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin hüquqlarının kütləvi şəkildə pozulması faktının beynəlxalq ictimaiyyətə çatdırılması və onlara dəymiş maddi zərərin Ermənistan Respublikası tərəfindən ödənilməsi məqsədi ilə tədbirlərin həyata keçirilməsi | 1998-ci il və sonrakı illər | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Xarici İşlər Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |
| **II. Miqrasiya, məskunlaşma, reabilitasiya, bərpa və repatriasiya problemləri** | | |
| 1 . Qaçqınların və məcburi köçkünlərin uçotunun dəqiqləşdirilməsi, vahid informasiya bazasının yaradılması. | 1998-ci il | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Maliyyə Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Statistika Komitəsi, şəhər və rayon icra hakimiyyətləri |
| 2 . Qaçqınların və məcburi köçkünlərin miqrasiyasının səbəblərinin təhlil edilməsi, kortəbii miqrasiyanın əlavə problemlər yaratmasına yol verməmək məqsədi ilə ölkədəki miqrasiya proseslərinin tənzimlənməsi. | müntəzəm | Nazirlər Kabineti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Statistika Komitəsi, şəhər və rayon icra hakimiyyətləri |
| 3 . Qaçqınların və məcburi köçkünlərin müvəqqəti yaşadıqları ictimai binaların və mənzillərin özəlləşdirilməsinin müvəqqəti dayandırılması məsələsinə baxılması, işğaldan azad edilmiş ərazilərdə dövlət əmlakının məcburi köçkünlər üçün pulsuz özəlləşdirilməsinin təmin edilməsi. | 1998-ci il və sonrakı illər | Nazirlər Kabineti, Dövlət Əmlak Komitəsi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, şəhər və rayon icra hakimiyyətləri |
| 4 . Ermənistandan və Orta Asiyadan qovulmuş qaçqınların müvəqqəti məskunlaşmalarını başa çatdırmaq məqsədi ilə Xanlar, Goranboy, Şəmkir, Ağstafa, Xızı, Hacıqabul, Sabirabad, Saatlı, Siyəzən rayonlarında əvvəllər bu məqsədlə tikilməyə başlanılmış, lakin tikintisi yarımçıq qalmış və keyfiyyətsiz tikilmiş binaların tikilib istifadəyə verilməsi. | 1998—1999-cu illər | Nazirlər Kabineti, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, şəhər və rayon icra hakimiyyətləri |
| 5 . Qaçqınların və məcburi köçkünlərin sığınacaq problemi ilə bağlı əlavə tədbirlərin görülməsi. Adamların çadırlardan, rels üzərindəki vaqonlardan, qazma evlərdən, yaşayış üçün yararlı olmayan digər obyektlərdən çıxarılıb tədricən daha münasib sığınacaqlarla təmin edilməsi məqsədi ilə planlı tədbirlərin görülməsi. | müntəzəm | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Ərazilərin Bərpası və Yenidənqurulması üzrə Dövlət Komissiyası, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, şəhər və rayon icra hakimiyyətləri |
| 6. Füzuli rayonu ərazisində torpaqların minalardan təmizlənməsinin başa çatdırılması. | 1998-ci il və sonrakı illər | Ərazilərin Bərpası və Yenidənqurulması üzrə Dövlət Komissiyası, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Müdafiə Nazirliyi, Respublika Mülki Müdafiə Qərargahı |

| | | |
|---|---|---|
| 7. Füzuli rayonu ərazisində hər birində 100—120 ailə üçün 5 müvəqqəti yaşayış məntəqəsinin salınması məsələsinə baxılması, beynəlxalq humanitar təşkilatların bu işə cəlb olunması.<br>Rayonun işğaldan azad olunmuş qəsəbə v ə kəndlərində yeni iş yerlərinin yaradılması, tikiş, toxuculuq, çörəkbişirmə sexlərinin açılması, dəyirman qurulması, torpaq sahələrinin ayrılması və s. | 1998—1999-cu illər | N a z i r l ə r Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Ərazilərin Bərpası və Yenidənqurulması üzrə Dövlət Komissiyası, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Mərkəzi Bank, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Meliorasiya və Su Təsərrüfatı Komitəsi, «Azərenerji» Səhmdar Cəmiyyəti, Füzuli Rayonu İcra Hakimiyyəti |
| 8. Ağdam rayonu kəndlərinin infrastrukturunun yenidən qurulması, 17 kənddə kommunikasiya xətlərinin məktəblərin, tibb müəssisələrinin bərpası, yeni yaşayış massivinin salınması üçün Quzanlıda 5 hektar, Hergidə 10 hektar torpaq sahəsinin ayrılması.<br>500 ailə üçün sadə daş evlərin tikilməsi, əkin sahələrinin 10 min hektara çatdırılması.<br>B u n u n l a əlaqədar yeni elektrik xətlərinin çəkilməsi və əlavə 5 artezian q u y u s u n u n qazılması, fərdi təsərrüfatları inkişaf etdirmək üçün məcburi köçkünlərə maliyyə və texniki y a r d ı m göstərilməsi, onlara güzəştli k r e d i t l ə r i n verilməsi, beynəlxalq təşkilatların bu işlərin həyata keçirilməsinə cəlb olunması. | 1998-ci il və sonrakı illər | N a z i r l ə r Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Ərazilərin Bərpası və Yenidənqurulması üzrə Dövlət Komissiyası, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Mərkəzi Bank, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Torpaq K o m i t ə s i, Meliorasiya və Su Təsərrüfatı Komitəsi, *“Azərişıq” Açıq Səhmdar Cəmiyyəti*, Ağdam Rayonu İcra Hakimiyyəti[2] |
| 9 . Bərdə rayonunun Ləmbəran kəndi ə t r a f ı n d a Kəlbəcər rayonuna məxsus ərazidə beynəlxalq təşkilatların köməyi ilə 150 ailə üçün sadə daş evin tikilməsi.<br>Müvəqqəti istifadə üçün Xanlar rayonu ə r a z i s i n d ə Kəlbəcər rayonuna 100 hektar yararlı torpaq sahəsi ayrılması, fərdi təsərrüfatların yaradılması, bu ərazilərdə beynəlxalq humanitar təşkilatların xətti ilə məcburi köçkünlərin müvəqqəti məskunlaşması üçün 200 sadə daş evin tikilməsi. | 1998-ci il və sonrakı illər | N a z i r l ə r Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Kənd Təsərrüfatı Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Dövlət Torpaq Komitəsi, Kəlbəcər, Bərdə və Xanlar rayonlarının icra hakimiyyətləri |
| 10. Laçın rayonunun əhalisi üçün «Taxta körpü»də tikinti-abadlıq işlərinin genişləndirilməsi, tikintisi yarımçıq qalmış binaların inşasının başa çatdırılması, artezian quyularının təmir edilməsi, 100 tonluq su anbarının tikilməsi, obalara gedən yolların qaydaya salınması, əkin sahəsinin 3000 hektara çatdırılması, heyvandarlıqla məşğul olan ailələrə kömək göstərilməsi, tədris və səhiyyə müəssisələrinin avadanlıqla təchizatının yaxşılaşdırılması, onların yanacaqla təmin olunması, yığma evlərin təmir edilməsi. | 1998-ci ildən başlayaraq | N a z i r l ə r Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Səhiyyə Nazirliyi, *Elm və Təhsil* Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Meliorasiya və Su Təsərrüfatı Komitəsi, «Azəravtoyol» Dövlət Şirkəti, Laçın Rayonu İcra Hakimiyyəti[3] |
| 1 1 . Xocavənd rayonunun məcburi köçkünlərinə Hərami düzündə 150-200 ailə üçün sadə daş evlərdən ibarət qəsəbə salınması, yol çəkilməsi, torpaq sahələrinin ayrılması, fərdi təsərrüfatların yaradılmasına maliyyə y a r d ı m ı göstərilməsi. Beynəlxalq təşkilatların bu proqramlara cəlb olunması. | 1998—1999-cu illər | Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Kənd Təsərrüfatı Nazirliyi, Mərkəzi Bank, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Torpaq Komitəsi, Meliorasiya və Su Təsərrüfatı K o m i t ə s i, «Azəravtoyol» Dövlət Şirkəti, «Azərenerji» Səhmdar Cəmiyyəti, müvafiq rayonların icra hakimiyyətləri |

| | | |
|---|---|---|
| 12. Cəbrayıl, Qubadlı, Zəngilan, Şuşa, Xocalı rayonları üçün müvafiq əkin sahələrinin ayrılması, həmin sahələrin əkilib-becərilməsi üçün neft, dizel yanacağı, gübrə, kənd təsərrüfatı texnikası və digər zəruri vasitələrlə təminatına kömək göstərilməsi. | müntəzəm | Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Kənd Təsərrüfatı Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Neft Şirkəti, Dövlət Torpaq Komitəsi |
| 13. Ermənistanla həmsərhəd bölgələrdən məcburi köçkün vəziyyətinə düşərək öz rayonlarının (Gədəbəy, Tovuz, Qazax, Ağstafa, Sədərək, Tərtər və s.) ərazilərində və başqa yerlərdə yaşamaqda olan ailələrin məskunlaşma, geriqayıtma, iş, təhsil, səhiyyə və digər sosial problemlərinin həlli üzrə xüsusi perspektiv tədbirlər planlarının işlənib hazırlanması və həyata keçirilməsi. | 1998-ci il və sonrakı illər | Nazirlər Kabineti, Ərazilərin Bərpası və Yenidənqurulması üzrə Dövlət Komissiyası, Səhiyyə Nazirliyi, *Elm və Təhsil* Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Meliorasiya və Su Təsərrüfatı Komitəsi, *"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti*, rayonların icra hakimiyyətləri |
| 14. Qaçqınların və Məcburi Köçkünlərin şəhər və rayon mərkəzlərində və digər məskunlaşma ərazilərində işlə təmin edilmələri üçün əlavə tədbirlərin görülməsi, onların *mikro və* kiçik sahibkarlıq, gəlirgötürmə və kənd təsərrüfatı işlərinə cəlb olunması, peşə kurslarının təşkili.<br>Beynəlxalq humanitar təşkilatların bu işdə iştirakının təmin edilməsi.[4] | müntəzəm | Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, *İqtisadiyyat Nazirliyi*, şəhər və rayonların icra hakimiyyətləri[5] |
| 15. Bakı və Sumqayıt şəhərlərində sığınacaq tapmış məcburi köçkün ailələrinin qeydiyyat məsələsinə yenidən baxılması, daxili miqrasiyaya nəzarətin gücləndirilməsi. | 1998-ci il | Nazirlər Kabineti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Statistika Komitəsi, şəhər və rayonların icra hakimiyyətləri |
| 16. Məcburi köçkünlərin 1992—1994-cü illərdə müvəqqəti məskunlaşdıqları mənzillərdən çıxarılmasının qarşısının alınması, həmin ailələrin məskunlaşdıqları evlərə aidiyyəti təşkilatlar tərəfindən ayrı-ayrı vətəndaşlara verilmiş orderlərin hüquqi qüvvəsinin müvəqqəti dayandırılması. Bu sahəyə hüquq-mühafizə orqanlarının nəzarətinin gücləndirilməsi. | 1998-ci il və sonrakı illər | Ədliyyə Nazirliyi, Respublika Ali Məhkəməsi, Respublika Prokurorluğu, şəhər və rayonların icra hakimiyyətləri |
| 17. İşğaldan azad olunmuş və zərər çəkmiş ərazilərin 1998—2001-ci illər üzrə bərpası ilə bağlı Ərazilərin Bərpası və Yenidənqurulması üzrə Dövlət Komissiyası tərəfindən hazırlanmış xüsusi proqramın Nazirlər Kabinetində təsdiqi və icrasının təmin olunması. | 1998-ci il və sonrakı illər | Nazirlər Kabineti, Ərazilərin Bərpası və Yenidənqurulması üzrə Dövlət Komissiyası, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, İqtisadiyyat Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Tikinti və Arxitektura Komitəsi, müvafiq rayonların icra hakimiyyətləri |
| 18. Bərpa və yenidənqurma problemləri ilə əlaqədar Azərbaycan Hökuməti, Dünya Bankı, BMT, Avropa Birliyi və digər təşkilatların iştirakı və təklifləri əsasında aşağıdakı tədbirlərin görülməsi: | | |
| - Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin strukturunda repatriasiya departamentinin yaradılması; | 1998-ci il avqust | Nazirlər Kabineti, Ərazilərin Bərpası və Yenidənqurulması üzrə Dövlət Komissiyası, Maliyyə Nazirliyi, Mərkəzi Bank, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |

| | | |
|---|---|---|
| - Məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmalarının təhlükəsizliyini təmin etmək üçün işğaldan azad olunmuş və olunacaq ərazilərin minalardan təmizlənməsi, digər profilaktiki tədbirlərin görülməsi məqsədi ilə Respublika Hökumətinin strukturunda xüsusi qurumun yaradılması və onun peşəkar mütəxəssislərlə təmin edilməsi; | 1998-ci il və sonrakı illər | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı, Nazirlər Kabineti, Maliyyə Nazirliyi, Müdafiə Nazirliyi |
| - Kənd Təsərrüfatı Nazirliyinin strukturunda Bərpa Proqramının əhatə etdiyi ərazilərdə kənd təsərrüfatı layihələrinin təşkilini və onun icrasını təmin edən qurumun yaradılması; | 1998-ci il | Nazirlər Kabineti, Ərazilərin Bərpası və Yenidənqurulması üzrə Dövlət Komissiyası, Kənd Təsərrüfatı Nazirliyi |
| - Bərpa Proqramı çərçivəsində Azərbaycan Hökumətinin payı kimi birbaşa maliyyələşdirilməsi nəzərdə tutulan mənzil tikintisi üzrə 8 mln. 500 min ABŞ dollarının, repatriasiya üzrə 1 mln. 200 min ABŞ dollarının ayrılması məsələsinə baxılması. | 1998—2001-ci illər | Nazirlər Kabineti, Maliyyə Nazirliyi, Ərazilərin Bərpası və Yenidənqurulması üzrə Dövlət Komissiyası, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |
| 19. Qaçqınların və Məcburi Köçkünlərin yaşadıqları ərazilərdə elektrik enerjisi təchizatının yaxşılaşdırılması, repatriasiya dövründə zəruri obyektlərin elektrik enerjisi ilə təchiz olunmasının təmin edilməsi. | müntəzəm | Nazirlər Kabineti, *“Azərişıq” Açıq Səhmdar Cəmiyyəti*, şəhər və rayonların icra hakimiyyətləri |
| 20. Qaçqınların və Məcburi Köçkünlərin müvəqqəti məskunlaşdıqları yerlərdə və repatriasiya dövründə müxtəlif növ reabilitasiya və reinteqrasiya tədbirlərinin həyata keçirilməsi. Beynəlxalq təşkilatların bu işə cəlb olunması. | müntəzəm | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, şəhər və rayonların icra hakimiyyətləri. |
| **III. Qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi** | | |
| 1. Əmək yarmarkaları keçirilərkən əmək qabiliyyətli qaçqınların və məcburi köçkünlərin müvafiq işə cəlb edilməsinə üstünlük verilməsi, işə cəlbolunma prosesinin proqnozlaşdırılması.<br>Məcburi köçkünlərin sıx şəkildə məskunlaşdıqları çadır düşərgələrində, yığma evlərdən ibarət qəsəbələrdə, habelə şəhər və rayonlarda kiçik sexlərin, istehsalat sahələri üzrə filialların, gəlirgətirən digər iş sahələrinin təşkili, yeni peşələr öyrədilməsi məsələlərinin həlli, beynəlxalq humanitar təşkilatların bu sahədə aparılan işlərə cəlb olunması. | müntəzəm | Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, şəhər və rayonların icra hakimiyyətləri |
| 2. Kənd rayonlarında məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinə müvəqqəti istifadə üçün dövlət və bələdiyyə torpaq fondu hesabına müəyyən ölçüdə münbit əkin, qışlaq, yaylaq və örüş sahələrinin ayrılması, həmin sahələrin becərilməsi üçün kənd təsərrüfatı texnikası, yanacaq, toxum, bitki mühafizə vasitələri, gübrə, əkin suyu ilə kömək göstərilməsi sisteminin yaradılması, fermer təsərrüfatlarının inkişafına kömək göstərilməsi, gəlirgətirən sahələrin inkişafı üçün dövlət təminatı ilə güzəştli kreditlərin ayrılması. Dünya Bankının, beynəlxalq humanitar təşkilatların bu sahədəki layihələrindən istifadə edilməsi. | müntəzəm | Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Kənd Təsərrüfatı Nazirliyi, Mərkəzi Bank, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Torpaq Komitəsi, şəhər və rayonların icra hakimiyyətləri |

| | | |
|---|---|---|
| 3 . İşğal olunmuş rayonların idarə və müəssisələrində maşın-mexanizmlərin özəlləşdirilməsində məcburi köçkünlərə üstünlük verilməsi. | 1998-ci il | Dövlət Əmlak Komitəsi, şəhər və rayonların icra hakimiyyətləri |
| 4 . 1994-1998-ci illərdə kənd təsərrüfatı sahəsində, idarə və müəssisələrdə çalışmış məcburi köçkünlərin ödənilməmiş əmək haqlarının verilməsi üçün tədbirlərin görülməsi.<br>Əmanət banklarına 1 yanvar 1992-ci ilədək qoyulmuş əmanətlərin indeksləşdirilməsi (alıcılıq qabiliyyətinin bərpası) başlanarkən qaçqınlara və məcburi köçkünlərə həmin vəsaitin ilk növbədə ödənilməsinin təmin olunması, istehsalat obyektləri, müəssisələr özəlləşdirilərkən və ya xarici sərmayədarlara verilərkən, eyni zamanda idarə və müəssisələrdə çalışanlar arasında ixtisar aparılarkən «qaçqın» və «məcburi köçkün» statusu almış şəxslərin işdə saxlanılmasına üstünlük verilməsi. | müntəzəm | Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Səhmdar Kommersiya Aqrar-Sənaye Bankı, Səhmdar Kommersiya Əmanət Bankı |
| 5 . Qaçqınlar və məcburi köçkünlər yerləşən ərazilərdə su təchizatı məsələləri:<br>Ağcabədi rayonu ərazisində Laçın rayonuna məxsus qışlaq torpaqlarının suvarma suyu ilə təmin edilməsi üçün Kür çayında üzən nasos stansiyasının təşkil olunması;<br>Ağdam rayonunun Quzanlı, Xındırıstan, Üçoğlan, Qərvənd, Əhmədağalı, Çəmənli, Mahrızlı, Əfətli və digər kəndlərində 80 su artezian quyusunun bərpası;<br>Ağcabədi, İmişli, Beyləqan, Füzuli rayonları ərazilərində suvarma kanalının, subartezian quyularının, su təchizatı üçün nasos stansiyalarının, boru kəmərləri və suvarma nasoslarının çəkilməsi, bərpası və tikilməsi. | 1998—1999-cu illər | Nazirlər Kabineti, Ərazilərin Bərpası və Yenidənqurulması üzrə Dövlət Komissiyası, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Meliorasiya və Su Təsərrüfatı Komitəsi |
| 6 . Dövlət ali və orta ixtisas məktəblərinin ödənişli şöbələrində oxuyan «qaçqın» və «məcburi köçkün» statusu almış şəxslərin 1998—1999-cu dərs ilindən başlayaraq həmin statuslara xitam verilənədək ödəniş haqqını verməkdən azad olunması, belə tələbələrə xüsusi təqaüdün təsis edilməsi məsələsinə baxılması, özəl ali məktəblərdə və digər təhsil ocaqlarında bu qəbildən olan şəxslər üçün konkret güzəştlərin müəyyənləşdirilməsi. | 1998-ci il | Nazirlər Kabineti, Maliyyə Nazirliyi, Təhsil Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Nazirlər Kabineti yanında Dövlət Ali Ekspert Komissiyası, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası |
| 7 . Ümumtəhsil məktəblərinin məcburi köçkün ailələrindən olan şagirdlərinin bütün siniflərdə pulsuz dərsliklər və dərs ləvazimatları ilə təmin olunması. | müntəzəm | Maliyyə Nazirliyi, *Elm və Təhsil* Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |
| 8. Çadır düşərgələrində, yığma evlərdən ibarət qəsəbələrdə və köçkünlərin sıx məskunlaşdıqları digər yerlərdə olan məktəblilərin yay istirahətinin təşkili. | müntəzəm | *Elm və Təhsil* Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Gənclər və İdman Nazirliyi |
| 9 . Büdcədən maliyyələşən təşkilatlarda çalışmış, sonradan məcburi köçkün vəziyyətinə düşmüş, özlərindən asılı olmayan səbəblərdən işləməyən təhsil, səhiyyə, mədəniyyət və digər sahə işçilərinin işlə təmin olunmasının 1999-cuil yanvarın 1-dək başa çatdırılması. | 1998-ci il | Maliyyə Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Mədəniyyət Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, şəhər və rayonların icra hakimiyyətləri |

| | | |
|---|---|---|
| 10. Məcburi köçkünlərin minimum yaşayış ehtiyaclarının ödənilməsinə kömək məqsədi ilə işləməyənlərə, ali və orta ixtisas məktəblərində təhsil alanlara verilən müavinətlərin artırılması məsələsinə baxılması, hər bir məcburi köçkün ailəsinin sosial vəziyyətinin dəqiqləşdirilməsi, müavinətlər müəyyənləşdirilərkən və humanitar yardım göstərilərkən həmin amillərin nəzərə alınması. | 1998-ci il | Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Statistika Komitəsi, şəhər və rayonların icra hakimiyyətləri |
| 11. «Qaçqın» və «məcburi köçkün» statusu almış şəxslərin statuslarına xitam verilənədək notarial xidmətləri üçün dövlət rüsumunu ödəməkdən azad olunması məsələsinə baxılması | 1998-ci il | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi |
| 12. Qaçqınlara və məcburi köçkünlərə səhiyyə xidmətinin yaxşılaşdırılması, onların yaşadıqları yerlərdə yoluxucu xəstəliklərə, antisanitariya hallarına qarşı mübarizə aparılması, beynəlxalq humanitar təşkilatlar və digər təşkilatlar tərəfindən verilmiş dərman preparatlarının təyinatı üzrə istifadəsinə nəzarətin gücləndirilməsi | müntəzəm | Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Səhiyyə Nazirliyi, *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi*[6] |
| 13. Məcburi köçkünlərin sıx yaşadıqları yerlərdə səyyar rentgen laboratoriyalarının təşkil edilməsi, işğal olunmuş rayonların xəstəxanalarının, tibb məntəqələrinin, tibbi avadanlıq və ləvazimatlarla, dərmanla, zəruri inventarlarla təmin olunması üçün tədbirlərin görülməsi.<br>*Tibb* müəssisələrində qaçqın və məcburi köçkünlərin pulsuz müayinəsi və müalicəsi, dərman preparatları ilə təmin olunması. | müntəzəm | Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi*[7] |
| 14. Məcburi köçkün ailələrinin yanacağa (ağ neft, dizel yanacağı, odun və s.) olan ehtiyaclarının vaxtında ödənilməsi üçün tədbirlərin görülməsi. | hər il | Maliyyə Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Neft Şirkəti, «Azərmeşə» İstehsalat Birliyi |
| 15. *Əlilliyi olan* qaçqın və məcburi köçkünlərə protez, müalicə-profilaktika, tibbi reabilitasiya xidməti sahəsində diqqət və qayğının artırılması, *əlilliyi olan şəxslər üçün arabalara* olan ehtiyacların ödənilməsinin təmin edilməsi. Ehtiyacı olanların internat evlərində, pansionatlarda yerləşdirilməsinə, sanatoriya və kurort müalicəsinə göndərilməsinə kömək göstərilməsi.[8] | müntəzəm | Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Səhiyyə Nazirliyi, *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi* |
| 16. Respublikada fəaliyyət göstərən beynəlxalq humanitar təşkilatların işinin səmərəliliyinin artırılması, qarşıya çıxan problemlərinin operativ həll edilməsi üçün dövlət orqanları tərəfindən zəruri tədbirlərin görülməsi (qeydiyyat, viza qeydiyyatı, ofis və anbar üçün binaların ayrılması, təsərrüfat-məişət məsələləri, nəqliyyat, rabitə vasitələrindən istifadə və s.). | müntəzəm | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, müvafiq dövlət orqanları |

| | | |
|---|---|---|
| 17. Donor ölkə və beynəlxalq humanitar təşkilatlar tərəfindən qaçqınların və məcburi köçkünlərin, aztəminatlı ailələrin ehtiyacları üçün ayırdıqları vəsaitlər hesabına respublika ərazisində alınan malların «0» (sıfır) dərəcə ilə əlavə dəyər vergisinə cəlb olunması üçün «Əlavə dəyər vergisi haqqında» Azərbaycan Respublikası Qanununda əlavələr və dəyişikliklər edilməsi məsələsinə baxılması. | 1998-ci il sentyabr | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Maliyyə Nazirliyi, Baş Dövlət Vergi Müfəttişliyi, müvafiq dövlət orqanları |
| 18. Qaçqınlara və məcburi köçkünlərə humanitar yardımların göstərilməsində ciddi intizamın yaradılması, ayrı-ayrı dövlətlərin, beynəlxalq humanitar təşkilatların, xeyriyyə cəmiyyətlərinin, dövlət orqanlarının, yerli qeyri-hökumət humanitar təşkilatların, hüquqi və fiziki şəxslərin, iş adamlarının göstərdikləri yardımların qəbulu, qeydiyyatı, saxlanılması və bölüşdürülməsinin vahid mərkəzdən əlaqələndirilməsi. | müntəzəm | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Dövlət Gömrük Komitəsi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, şəhər və rayonların icra hakimiyyətləri |
| 19. Qaçqınların və Məcburi Köçkünlərin Problemlərinin Həlli üzrə Dövlət Komissiyasının qərarı ilə nazirlik, komitə, şirkət, konsern və digər mərkəzi idarələrin qaçqınların və məcburi köçkünlərin sıx şəkildə yaşadıqları şəhər və rayonlara təhkim edilməsinin təşkili, həmin təşkilatlarda əlaqələndirmə işlərinin ardıcıl və səmərəli aparılması üçün qərargahların yaradılması. | icra olunub, müntəzəm | Qaçqınların və Məcburi Köçkünlərin Problemlərinin Həlli üzrə Dövlət Komissiyası, Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası |
| 20. Qaçqınlara və məcburi köçkünlərə maddi yardım göstərilməsi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində fəaliyyət göstərən Yardım Fondunun Əsasnaməsinin yenidən işlənilməsi və bu fonda ayırmaların mənbələrinin müəyyən edilməsi. | 1998-ci il avqust—sentyabr | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Mərkəzi Bank, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |
| **IV. Qaçqınların və məcburi köçkünlərin problemlərinin təbliği və onlarla aparılan kütləvi-mədəni iş** | | |
| 1. Qaçqınlar və məcburi köçkünlər arasında müntəzəm olaraq kütləvi-mədəni işin aparılması, müstəqil Azərbaycan dövlətinin xarici və daxili siyasətinin, Ermənistan—Azərbaycan münaqişəsinin həlli yollarında aparılan ardıcıl və prinsipial işin geniş təbliği. Qaçqınlarla və məcburi köçkünlərlə görkəmli elm və sənət adamlarının, ziyalıların, şair və yazıçıların, incəsənət xadimlərinin, habelə rəhbər işçilərin vaxtaşırı görüşlərinin təşkil edilməsi. | müntəzəm | Nazirlər Kabineti, Elmlər Akademiyası, Mədəniyyət Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi, Dövlət Televiziya və Radio Verilişləri Şirkəti, digər mərkəzi idarələr |
| 2. İşğal olunmuş rayonların tarixinin, qaçqınların və məcburi köçkünlərin problemlərinin, ehtiyaclarının ağır həyat şəraitinin təbliğinin planlı şəkildə müntəzəm aparılması, ictimaiyyətə və beynəlxalq aləmə çatdırılması üçün Dövlətqaçqınkomun nəzdində xüsusi strukturun təşkil edilməsi. | 1998-ci il avqust—sentyabr | Nazirlər Kabineti, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |
| 3. Qaçqınlar və məcburi köçkünlər arasında sosioloji sorğunun aparılması, onların ən zəruri ehtiyac və tələblərinin öyrənilməsi, analitik informasiya materiallarının hazırlanması və beynəlxalq aləmə çatdırılması | müntəzəm | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Xarici İşlər Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Statistika Komitəsi |
| **V. Qaçqınların və məcburi köçkünlərin problemləri ilə məşğul olan dövlət orqanlarının işinin təkmilləşdirilməsi** | | |

| | | |
|---|---|---|
| 1. Qaçqınların və məcburi köçkünlərin problemləri ilə məşğul olan dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, bu sahədə aparılan işlərdə paralelliyin aradan qaldırılması, onlara göstərilən xidmətlərin və humanitar yardımların və s. məsələlərin sistemli şəkildə tənzimlənməsi məqsədi ilə Nazirlər Kabineti İşlər İdarəsinin strukturunda vahid şöbənin yaradılması və həmin şöbənin tərkibində analitik informasiya və proqnozlaşdırma bölməsinin təşkil edilməsi. | 1998-ci il avqust | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı, Nazirlər Kabineti, Maliyyə Nazirliyi |
| 2. «Qaçqınların və məcburi köçkünlərin statusu haqqında» Azərbaycan Respublikası Qanunundan, Respublika Prezidentinin fərman, sərəncam və tapşırıqlarından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədi ilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin strukturuna və səlahiyyətlərinə yenidən baxılması, onun Əsasnaməsinin müasir tələblərə uyğunlaşdırılıb təsdiq edilməsi. | 1998-ci il sentyabr—oktyabr | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı, Nazirlər Kabineti, Maliyyə Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |
| 3. Qaçqınlarla və məcburi köçkünlərlə iş aparılmasının şəhər və rayon icra hakimiyyəti başçıları müavinlərindən birinə həvalə edilməsi. | 1998-ci il avqust—sentyabr | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı, Nazirlər Kabineti, Maliyyə Nazirliyi, şəhər və rayonların icra hakimiyyətləri |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80**)
2. 1 iyun 2016-cı il tarixli **932** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 3 iyun 2016-cı il, 118, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1028**)
3. 21 may 2019-cu il tarixli **1190** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 911**)
4. 14 avqust 2020-ci il tarixli **2211** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 15 avqust 2020-ci il, 160, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1064**)
5. 12 iyun 2021-ci il tarixli **2673** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 13 iyun 2021-ci il, 122 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 607**)
6. 4 avqust 2022-ci il tarixli **3408** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 4 avqust 2022-ci il, "Xalq" qəzeti 5 avqust 2022-ci il, 164 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 909**)
7. 3 mart 2023-cü il tarixli **3782** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 3 mart 2023-cü il, "Xalq" qəzeti, 4 mart 2023-cü il, 49**)

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80**) ilə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nın mətnində "**Milli Bank**" sözləri "**Mərkəzi Bank**" sözləri ilə əvəz edilmişdir.

[2] 1 iyun 2016-cı il tarixli **932** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 3 iyun 2016-cı il, 118, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1028**) ilə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nın II hissəsinin 8-ci, 13-cü və 19-cu bəndlərinin "İcra orqanları" sütununda "**Azərenerji" Səhmdar Cəmiyyəti**" sözləri "**Azərişıq" Açıq Səhmdar Cəmiyyəti**" sözləri ilə əvəz edilmişdir.

[3] 3 mart 2023-cü il tarixli **3782** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 3 mart 2023-cü il, "Xalq" qəzeti, 4 mart 2023-cü il, 49**) ilə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nın II hissəsinin 10-cu və 13-cü bəndlərinin, III hissəsinin 7-ci və 8-ci bəndlərinin "İcra orqanları" sütununda "**Təhsil**" sözü "**Elm və Təhsil**" sözləri ilə əvəz edilmişdir.

[4] 21 may 2019-cu il tarixli **1190** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 911**) ilə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nın II hissəsinin 14-cü bəndinin "Tədbirlərin adı" sütununa "**kiçik**" sözündən əvvəl "**mikro və**" sözləri əlavə edilmişdir.

[5] 4 avqust 2022-ci il tarixli **3408** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 4 avqust 2022-ci il, "Xalq" qəzeti 5 avqust 2022-ci il, 164 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 909**) ilə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nın II hissəsinin 14-cü bəndinin "İcra orqanları" sütununda "**Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi** " sözləri "**İqtisadiyyat Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[6] 12 iyun 2021-ci il tarixli **2673** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 13 iyun 2021-ci il, 122 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 607**) ilə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nın III hissəsinin 12-ci və 15-ci bəndlərin "İcra orqanları" sütununa "**Səhiyyə Nazirliyi**" sözlərindən sonra ", **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi**" sözləri əlavə edilmişdir.

[7] 12 iyun 2021-ci il tarixli **2673** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 13 iyun 2021-ci il, 122 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 607**) ilə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nın III hissəsinin 13-cü bəndin "Tədbirlərin adı" sütununun ikinci abzasında "Səhiyyə" sözü "**Tibb**" sözü ilə əvəz edilmişdir və həmin bəndin "İcra orqanları" sütununa "**Maliyyə Nazirliyi**" sözlərindən sonra ", **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi**" sözləri əlavə edilmişdir.

[8] 14 avqust 2020-ci il tarixli **2211** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 15 avqust 2020-ci il, 160, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1064** ) ilə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nın III hissəsinin 15-ci bəndində "**Əlil**" sözü "**Əlilliyi olan**" sözləri ilə və "**xüsusi əlil arabalarına**" sözləri "**əlilliyi olan şəxslər üçün arabalara**" sözləri ilə əvəz edilmişdir.